DOI:10.30546/gdu.5.2025

**UOT:80.**

# PREZİDENTLƏRİN ANDİÇMƏ DİSKURSUNUN MƏNƏVİ - İDRAKI VƏ KOMMUNİKATİV ASPEKTLƏRİ

***Rəsulova Cəmilə Xosrov qızı***
***Azərbaycan Dillər Universiteti***
***rasulova_camila@adu.edu.az***

**Xülasə:** *Tədqiqat andiçmə diskursunun koqnitiv və praqmatik xüsusiyyətlərinin araşdırılmasına həsr edilib. Məqalədə andiçmə nitqinin mənəvi-idraki, kommunikativ və sosial aspektləri, eləcə də prezident nitqlərində performativ və deklarativ funksiyaların auditoriyaya təsiri təhlil olunur. Koqnitiv yanaşma çərçivəsində konsept, freym, metafor və metonimiya kimi strukturların nitqin semantik və struktur səviyyələrindəki rolu müəyyən edilir. Analiz göstərir ki, nitqin leksik, üslubi, estetik və ekspressiv xüsusiyyətləri onun idraki və praqmatik funksiyalarını reallaşdırır. Tədqiqat andiçmə diskursunun konseptual və praqmatik təbiətini kompleks şəkildə anlamağa imkan verir.*

**Açar sözlər**: andiçmə nitqi, prezident diskursu, koqnitiv yanaşma, praqmatik aspekt, konsept.

**Key words:** inaugural address, presidential discourse, cognitive approach, pragmatic aspect, concept.

**Ключевые слова:** инаугурационное выступление, президентский дискурс, когнитивный подход, прагматический аспект, концепт.

Andiçmə diskursu yalnız dil hadisəsi kimi deyil, həm də mənəvi dəyərlərin, sosial məsuliyyətin və şəxsi öhdəliyin dil müstəvisində ifadəsi kimi çıxış edir. Onun koqnitiv və praqmatik aspektlərdən araşdırılması diskursun digər yanaşmalardan, xüsusən fəal, üslubi və arqumentativ təhlillərdən fərqləndiyini göstərir. Bu yanaşma diskursun strukturunu müəyyən edən formal qaydalardan çox, dil istifadəçilərinin mental proses və ifadə mexanizmlərinə yönəlir. Andiçmə çıxışlarının bu baxımdan spesifik və fərqli xüsusiyyətləri mövcuddur. Diskursun psixoloji aspektdən öyrənilməsi onun strateji strukturundan deyil, yaranma prosesində iştirak edən leksik və sintaktik vahidlərin mənasının dərk edilməsindən irəli gəlir. Beləliklə, diskurs natamam mental aktların və onların ardıcıllığının tədqiqi vasitəsilə izah olunur. Tədqiqatlar çərçivəsində verbalizasiyanın strukturu, üsulları, dinamikası, konseptlərin əlamətlərinin obyektləşdirilməsi və dil vasitələri ilə ifadəsi, həmçinin struktur-məzmun modelləşməsinin müxtəlif aspektləri araşdırılmışdır. Bununla yanaşı, konseptlərin funksionallığı, inkişafı və onların emosional, ideoloji, koqnitiv və aksioloji komponentlərinin müəyyənləşdirilməsi istiqamətində mühüm nəticələr əldə olunmuşdur. Bu nəticələr andiçmə diskursunun daha dərindən öyrənilməsi üçün mühüm metodoloji baza yaradır.

Andiçmə nitqi siyasi performativlərin nümunəsi kimi qiymətləndirilməlidir. V.V. Boqdanov, J. Serlin bölgüsünə əsaslanaraq, nitq aktlarını assartivlər, direktivlər, komissivlər, deklarativlər və ekspressivlər kimi təsnif edir [2, s.34]. Lakin performativ xarakterli mətnlər bu bölgüyə tam şəkildə daxil edilmir. İnaqurasiya nitqinin performativliyinin mərkəzində prezidentin andiçmə aktı dayanır və bu məqam nitqin semantik nüvəsini formalaşdırır. Performativlik xüsusiyyətləri onun janr təbiəti ilə sıx bağlı olub, nitqi epideytik ritorikanın digər janrlarından fərqləndirir. K. Kempbel və K. Ceymson bu tip nitqlərin əsas xüsusiyyətlərini aşağıdakı kimi müəyyənləşdirirlər:

– dinləyici auditoriyanı vahid xalq və millət anlayışı ətrafında birləşdirmək;
– milli-ənənəvi dəyərlərin mənbəyi kimi keçmişə müraciət etmək;
– prezidentlik institutuna hüquqi legitimlik qazandırmaq [5, s.68].

DOI:10.30546/gdu.5.2025

Yuxarıda sadalanlara istinad edərək, inaqurasiya nitqinin dörd əsas funksiyasını göstərmək olar: inteqrativ, inspirativ, deklatariv, performativ.

İnteqrativ funksiya millətin vahidliyi, birliyi anlayışlarının onun tarixi inkişafında özünü doğrultması ilə şərtlənir. Belə bir funksiyanın həyata keçməsində əsas rolu eksplisit markerlər oynayır. Məsələn, Fransua Olandın inaqurasiya çıxışındakı nitqində əsasən, *Les Français - fransızlar, le peuple français - fransız xalqı, dans l'Hexagone - Fransada, une France réunie - vahid Fransa* kimi söz və ifadələrə rast gəlirik.

Auditoriyaya koqnitiv təsir qismində ümid, gələcəyə inam, əminlik, etibar kimi hisslər reallaşır.

İnsiparativ funksiya milləti böyük amallara həvəsləndirmək uğrunda baş tutan fəaliyyətdir. Prezident auditoriyanı xoşbəxt gələcəyə ruhlandırmalı və öz nitqinin inandırıcılığı ilə xalqı inandırmalıdır. Bu funksiya çətinlikləri dəf edəcəyinə vəd baxımından da mühüm rola malikdir. Qeyd edək ki, Azərbaycan prezidentlərinin inaqurasiya nitqlərindən fərqli olaraq, Amerika prezidentlərinin andiçmə nitqində üstünlük dərəcələrinin işlədilməsinə daha çox rast gəlirik.

Məsələn, B.Klintonun inaqurasiya nitqində *the world's oldest - dünyanın ən qədim, the world's greatest democracy - dünyanın ən böyük demokratiyası, the world's strongest - dünyanın ən güclü* kimi söz və ifadələrinin işlədilməsi buna nümunə ola bilər.

İlham Əliyevin digər nitqinə nəzər salaq: *"İqtisadiyyatın şaxələndirilməsi siyasəti davam etdirilir və qarşıdakı illərdə də bu istiqamət əsas prioritetlərdən biri olacaq. Məqsədimiz növbəti on ildə qeyri-neft sektorunun həcmini iki dəfə artırmaqdır. Bu strateji hədəf bir il əvvəl müəyyən edilmişdir və düşünürəm ki, bu məqsədə çatmaq üçün kifayət qədər resurs və potensial mövcuddur "* (İ.Əliyevin andiçmə nitqi, 19 Oktyabr, 2013) [8].

Bundan başqa, prezident millətini qarşıda duran böyük işlər və onun ənənəvi dəyərlərinin təsbihi uğrunda ilhamlandırır. Prezident auditoriyanı xoşbəxt gələcək ümidi ilə ruhlandırır və nitqi ilə öz sələflərinin ənənələrinin davamçısı olacağına xalqı inandırır. Bu da inspirativ funksiyanın dil vasitələrilə ifadəsidir.

Deklarativ funksiya yeni prezidentin idarəçilik prinsiplərini və gələcək fəaliyyət istiqamətlərini bəyan edən müraciət xarakterli çıxış kimi səciyyələnir.

Məsələn, İlham Əliyevin 19 oktyabr 2013-cü il andiçmə nitqində deyilir: "*Xarici siyasətimizin əsas istiqamətləri olduğu kimi davam etdiriləcəkdir… qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq və daxili işlərə müdaxilə etməmə prinsipləri əsasında qurulacaq…*" [8].

Bu mətn prezidentin xalqın narahatlıqlarını dərk etdiyini və ümummilli həmrəyliyə sadiq qaldığını nümayiş etdirir. "İnvestisiya", "əməkdaşlıq", "iqtisadi imkanlar" kimi leksik vahidlər bu mövqeni gücləndirir.

Performativ funksiya isə prezidentin fərdi şəxsiyyətindən çox, onun prezidentlik statusunu ön plana çıxarır. Burada nitq liderin hazırlıq səviyyəsini və natiqlik bacarığını göstərən vasitəyə çevrilir. Prezident çıxışı vasitəsilə xalqın taleyüklü məsələlərinə diqqət çəkir və lider kimi bilik, məsuliyyət və müdriklik nümayiş etdirir. Aşağıdakı nitqə diqqət yetirək:

*"Dünən ölkəmizdə Dövlət Müstəqilliyi Günü qeyd olundu. Düşünürəm ki, prezident seçkiləri və onların nəticələri xalqımızın dövlət müstəqilliyinə verdiyi növbəti dəyərin ifadəsidir. Bu seçkilər Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirmişdir. Seçkilər azad, ədalətli və şəffaf şəkildə keçirilmişdir və onların nəticələri xalqın iradəsini açıq şəkildə ortaya qoyur. Bununla da Azərbaycan xalqı son on ildə görülən işlərə öz yüksək qiymətini vermişdir."* (İ.Əliyevin andiçmə nitqi, 19 Oktyabr, 2013) [8].

DOI:10.30546/gdu.5.2025

Bu mətndə tarixin dəyərlərinin əksini görmək olar. Milli-mənəvi və mədəni-etik dəyərlərə konseptual yanaşma geniş şəkildə əks olunmuşdur. Performativ funksiyanın reallaşmasında dil vasitələrinin əhəmiyyəti açıq şəkildə nəzərə çarpır.

Koqnitiv dilçilikdə belə qəbul olunur ki, ətraf aləm və reallıqlar insan şüurunda konseptlər şəklində formalaşır və bu konseptlərin əsasını freymlər təşkil edir. Müasir tədqiqatlarda freym bir neçə konsepti birləşdirən, onların məzmununu müəyyənləşdirən struktur vahid kimi dəyərləndirilir. Freymin əsas komponentlərindən biri olan slotlar sintaktik konstruksiyalar vasitəsilə modelləşdirilir və bu, sabit söz birləşmələrində, idiomlarda və nitq ştamplarında özünü göstərir.

U. Eko "Oxucunun rolu" əsərində freymi empirik və semiotik anlayış kimi izah edir [4, s.10]. Onun və İ. Van Deykin fikirlərinə əsasən, freym stereotipik situasiyaların təsvirinə xidmət edən informasiya strukturudur; bu struktur qavrayış prosesini asanlaşdırır və insanın dil vasitəsilə informasiya mübadiləsini həyata keçirməsinə imkan yaradır. [6, p.362]

Beləliklə, freym konseptin əsasını təşkil edən biliyin vahidi sayılır və müəyyən mədəni kontekstdə tipik, vacib məlumatı özündə ehtiva edir [3, s.16]. Koqnitiv struktur daha ümumi xarakter daşıdığı halda, freym milli-mədəni xüsusiyyətləri əks etdirən daha konkret məna vahididir. İnaqurasiya diskursunun formalaşmasında koqnitiv-pragmatik strategiyalar müxtəlif istiqamətlərdə təzahür edir: birlik və həmrəylik tənzimləyiciləri, şüura təsir edən idrak strategiyaları, adresatın aksioloji sisteminə yönəlmiş təsir strategiyaları, həmçinin proqnozlaşdırma, məlumatlandırma, pozitiv reprezentasiya, oyandırma və manipulyasiya strategiyaları. Bir neçə nümunəyə nəzər salaq:

*Let us commit ourselves to ensuring that the coming four years become the most remarkable in our nation's history. By the time America celebrates its 200th anniversary, let it be as vibrant and full of promise as it was at its inception, shining as a beacon of hope for the entire world.* (Riçard M. Nikson 20 Yanvar, 1973). *("Gəlin, birlikdə and içək ki, Amerikanın tarixindəki növbəti dörd ili ən gözəl dördilik edəcəyik, belə ki, öz 200 illik ad gününə o, yaradıldığı ilk gündəki kimi gənc və yaşadıcı, həmçinin də bütün dunyaya işıq verən mayak kimi olacaq").*[9]

Bu nümunədə cəmiyyətin hisslərini tənzimləməyə çağıran strategiyaların reallaşdırılması müşahidə olunur. Beləliklə, inteqrasiya nitq taktları vasitəsilə ifadə olunur və əsas məqsədi dinləyiciləri vahid xalq kimi birliyə səsləməkdən ibarətdir. Bu nümunədə "unity" (birlik) birliyə çağırışı simvolizə edir, "let us" (gəlin) ifadəsi isə həm bu məqsədə xidmət edir, həm də inteqrasiyanın açıq göstəricisi kimi təqdim edilir. Bundan əlavə, pozitiv reprezentasiya strategiyası ümumilikdə ümid taktikası ilə həyata keçirilir. Xüsusilə, Amerikaya *beacon of hope for all the world,* yəni bütün dunyaya işıq verən mayak kimi baxılır.

Prezident auditoriyaya praqmatik təsir göstərərək onu məlumatlandırır, fəaliyyətə səfərbər edir, ümid hissi aşılayır və bəzən manipulyativ məqsədlə emosional təsir göstərir. Beləliklə, konseptual yanaşma çıxışda tətbiq olunan strategiyaların seçimini müəyyənləşdirir.

Prezidentlərinin andiçmə nitqlərində vital konsept çərçivəsində prezidentin simasında əminlik və etibar hisslərinin praqmatik effekti reallaşır. Sosial konseptlərdə isə praqmatik baxımdan apelyasiya – xalqın həyat fəallığını və ictimai motivasiyasını gücləndirən əsas faktor kimi çıxış edir.

Andiçmə nitqlərinin koqnitiv və praqmatik xüsusiyyətlərinin təhlilində metaforik və metonimik strukturların araşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu vahidlər fərdi konseptlər əsasında formalaşır və onların qarşılıqlı əlaqəsi nəticəsində freym yaranır. Məsələn, "Bakı said that" (Bakı deyir ki) ifadəsində "Bakı" paytaxt konseptini təmsil etsə də, onunla əlaqəli olan Azərbaycan siyasi hakimiyyəti və partiyalar həmin freym daxilində yer

DOI:10.30546/gdu.5.2025

alır. Bu halda "Bakı" sözünün nominativ mənası genişlənir, yeni semantik freym formalaşır və lüğəvi məna transformasiyası baş verir. Eyni prinsip metaforik ifadələr üçün də keçərlidir.

Metaforların yaranması insanın təbiəti müşahidə etmə qabiliyyəti, obyektlər arasındakı formal və funksional oxşarlıqların qavranılması ilə bağlıdır. Koqnitiv metaforların formalaşması bu assosiasiyaların qurulması prosesinə əsaslanır. C. Lakoff və T. Johnsonun fikrincə, metaforlar insan şüurunda dilin yaranmasından əvvəl mövcud olub və konseptual sistemin əsasını təşkil edir. Onlara görə, insan düşüncəsi metaforik xarakter daşıyır və gündəlik dil bu metaforik təfəkkürün təzahür formasıdır. Bu hal dünyanın idrakında kateqoriyalaşdırma və xüsusiyyətlərin fərqləndirilməsi prinsipi ilə əlaqəlidir [7, s.56].

Praqmatik baxımdan dil üslubu kommunikativ məqsədlərə çatmaq üçün markerlənməmiş dil vasitələrinin istifadəsinə əsaslanır. Üslubi təhlildə kontekstual faktorların və xüsusi dil strukturlarının nəzərə alınması da mühüm əhəmiyyət kəsb edir. Beləliklə, mətnin üslubi çalarları eyni zamanda dilin praqmatik funksiyasının tərkib hissəsi kimi çıxış edir [1, s.67].

Bu prosesdə koqnitiv məna ümumi mənadan çıxaraq metaforik məna ilə əlaqəli motivasiya xarakteri daşıyır və bu da obraz-assosiasiya səviyyəsində baş verir. Mənanın motivasiyası, daha dəqiq desək, onun metaforik təsviri yeni strukturların – freymlərin, prototipik situasiyaların və ssenarilərin yaranmasını təmin edir. Koqnitiv sistemdə metaforların modelləşdirilməsi, geniş izahedici potensiala malik olmaqla, dil hadisəsi olaraq metaforun aid olduğu linqvistik elementləri də əhatə edir.

C.Lakof və T.Consonun fikrincə, metafor insan təfəkkürünün ayrılmaz bir elementidir. Hər bir mədəniyyətin daşıyıcısında həmin mədəniyyətin etnik xüsusiyyətlərini əks etdirən metaforlara rast gəlmək mümkündür. Məsələn, türk xalqlarının inanclarında yuxu ilə ölüm arasında assosiasiyanın qurulması diqqətəlayiqdir. Türk xalqlarının baxışlarına görə, yuxu ölüm deyil; yuxu təkrarlanan bir haldır, ölüm isə birdəfəlik baş verən bir prosesdir. Bu inanclar əsasən yuxu ilə ölüm arasında paralelliklərin qurulmasına səbəb olmuşdur. Türklərə görə, yuxu zamanı dünya unudulur, insan hər şeydən bixəbər olur və bu, müəyyən mənada ölümə bənzədilir. Beləliklə, yuxu ilə ölüm arasındakı assosiasiyanın əsasını bu cür düşüncə tərzi təşkil edir. Bu yanaşma, həmçinin, insanların mədəni-psixoloji baxışları və keçmiş təcrübələri ilə uyğunlaşır.

Eyni zamanda, vətənpərvərlik də bu cür konseptual çərçivədə dəyərləndirilə bilər. Məsələn, "*Vətən evdən başlayır*" ifadəsi bu çərçivədə anlam qazanır.

Bu baxımdan belə bir nəticəyə gəlmək olar ki, hər bir xalqın mədəni freymləri fərqli ola bilər. Bu fərqlilik isə əsasən həmin xalqın etnopsixoloji xüsusiyyətlərindən və yaşadığı sosial mühitdən asılıdır. Bədii diskursda bu istiqamətdə tədqiqatların aparılması freymlər, onların linqvokoqnitiv xüsusiyyətləri barədəki fikirləri xeyli zənginləşdirərək, konseptual metafor və metonimiyaların, habelə hiperbolanın etnokulturoloji mahiyyətini açmağa imkan verəcəkdir.

Aparılan təhlillər göstərir ki, nitqin strukturunda dilin lüğəvi zənginliyi, intonasiya çalarları, poetik və estetik funksiyaları, ekspressivlik dərəcəsi, eləcə də onun idraki və kommunikativ aspektləri mühüm əhəmiyyət kəsb edir. Bu xüsusiyyətlər dilin yalnız formal səviyyəsini deyil, eyni zamanda onun semantik, emosional və üslubi qatlarını da üzə çıxarır. Nitq və onun məhsulu olan diskurs və mətnlər vasitəsilə dilin funksional potensialını, mənaların formalaşma mexanizmini, idraki fəaliyyətlə bağlı konseptual strukturları və kommunikativ məqsədlərə yönəlmiş ifadə vasitələrini müəyyənləşdirmək mümkündür. Nəticə etibarilə, nitqdə müşahidə olunan linqvopoetik, estetik və praqmatik göstəricilər dilin dinamik təbiətini, həmçinin onun koqnitiv (idraki) və kommunikativ yönlərini kompleks şəkildə dəyərləndirməyə imkan yaradır.

DOI:10.30546/gdu.5.2025

***Ədəbiyyat***


1. Abdullayev, Y.M. Müasir Azərbaycan dili / Y.M.Abdullayev, Y.M.Seyidov, A.Q.Həsənov. – Bakı: Maarif, – 1972. – 474 s.
2. Богданов, В.В. Текст и текстовое общение / В.В.Богданов. СПб. СПбГУ, 1993. 63 с.
3. Дейк, ван Т.А. Язык, познания, коммуникация / Т.А. ван Дейк.Москва: 1989. – 200 с.
4. Эко, У. Роль читателя: Исследования по семиотике текста / У.Эко – Москва: Изд-во РГГУ, Пер. с англ. и итал. С.Серебряного. СПб.: Symposium, – 2005. – 502 с.
5. Campbell, K.K., Jamieson, K.P. Inaugurating the Presidency // Form, Genre andthe Study of Political Discourse - Columbia: S. Car., – 1986. – p. 394–411
6. Dijk, van T. Critical Discourse Analysis. In: A Handbook of Discourse Analysis. – Oxford: Blackwell, – 2001. – p.352-371.
7. Lakoff, G. Metaphors we live by / G.Lakof, M.Johnson. – Chicago: – 1980. – 244 p.
8. https://lib.aliyev-heritage.org/az/66679364.html
9. https://www.archives.gov/exhibits/american_originals/inaugtxt.html


**MORAL-COGNITIVE AND COMMUNICATIVE ASPECTS IN INAUGURAL ADDRESSES OF PRESIDENTS**

***Rasulova Jamila Xosrov***

***Summary***

The study examines the cognitive and pragmatic features of the inaugural address. It analyzes the cognitive, communicative, and social aspects of the inaugural speech, as well as the impact of performative and declarative functions in presidential addresses on the audience. Within the cognitive approach, the roles of concepts, frames, metaphors, and metonymy at the semantic and structural levels of speech are identified. The analysis demonstrates that lexical, stylistic, aesthetic, and expressive features of speech, realize its cognitive and pragmatic functions. The research provides a comprehensive understanding of the conceptual and pragmatic nature of the inaugural address.

**МОРАЛЬНО-КОГНИТИВНЫЙ И КОММУНИКАТИВНЫЙ КОНЦЕПТЫ В ИНАУГУРАЦИОННЫХ РЕЧАХ ПРЕЗИДЕНТОВ**

***Расулова Джамила Хосров кызы***

***Резюме***

Статья посвящена когнитивным и прагматическим особенностям инаугурационного дискурса. В статье анализируются когнитивные, коммуникативные и социальные аспекты инаугурационной речи, а также влияние перформативной и декларативной функций в инаугурационных выступлениях президентов на аудиторию. В рамках когнитивного подхода определяются роли концептов, фреймов, метафор и метонимий на семантическом и структурном уровнях. Анализ показывает, что лексические, стилистические, эстетические и экспрессивные характеристики речи реализуют её когнитивные и прагматические функции. Исследование обеспечивает комплексное понимание концептуальной и прагматической природы инаугурационного дискурса.

***Rəyçi: prof. Azad Məmmədov***
***ADU-nun Dünya Dilləri kafedrasının 10 oktyabr 2 sayli iclası protokolu***
***Daxil olma tarixi 20 oktyabr 2025-ci il***